**RAMİLƏ DADAŞOVA**
*AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin elmi işçisi, t.e.n.*

# REGİONAL MÜNAQİŞƏLƏRİN NİZAMA SALINMASINDA BMT-NİN REGİONAL VƏ SUBREGİONAL TƏŞKİLATLARLA ƏMƏKDAŞLIĞI

BMT Nizamnaməsinin VIII fəsli, müasir beynəlxalq hüququn digər qərar və prinsipləri regonlarda sülh və sabitliyi saxlamaq, münaqişələrin nizama salınması üçün regional təşkilat və sazişlərdən istifadə etmək imkanlarını özündə əks etdirir. 52-ci maddəyə görə BMT-nin regional təşkilatlar və sazişlərlə əməkdaşlığı yerli mübahisələrin TŞ-na verilməsindən əvvəl dinc yolla həll edilməsinə imkan yaradır. 53-cü maddədədə göstərilir ki, TŞ bu cür regional saziş və təşkilatlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə etsə də, TŞ-nın mandatı olmadan həmin regional sazişlər və ya regional təşkilat tərəfindən heç bir məcburiyyət tədbiri görülə bilməz. 54-cü maddəyə görə isə TŞ-na hər bir zaman sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün regional sazişlər və ya regional təşkilatlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir. ATƏT-in münaqişə zonasında düzgün fəaliyyət göstərməməsi, Nizamnamənin VIII fəslinə müvafiq olaraq BMT-nin lider rolunu azaltmağa çalışması Ermənistan-Azərbaycan münaqişəsinin nizamasalınmasını təxirə salır. V.F.Zaemskiy öz əsərində göstərir ki, bəzi regional təşkilatlar, xüsusən də ATƏT daha fəal hərəkət edərək BMT-nin lider rolunu azaltmağa çalışır, müvafiq regionda münaqişənin nizama salınmasında əsas rol oynmağa cəhd edir (6, s.23-24). Baş Məclisdə 2008-ci il 14 mart tarixdə «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə» adlı qətnamə qəbul edilərkən Minsk qrupunun həmsədrləri ABŞ, Fransa, Rusiyanın əleyhinə səs verməsi və onların belə mövqelərinin 2007-ci ildə Minsk qrupunun təklif etdiyi «balanslaşdırılmış paket»də göstərilən nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə əlaqələndirməsi ATƏT-in lider rol oynamağa cəhd etməsini açıq-aydın sübut edir (1).

BMT XX əsrin 90-cı illərindən başlayaraq sülhməramlı fəaliyyətini regonal təşkilatlarla əməkdaşlıqda həyata keçirir. Belə ki, «Soyuq müharibə»dən sonra meydana çıxan çoxsaylı regional münaqişələrin nizama salınması üçün BMT Nizamnaməsinin 52-54-cü maddələrinin həyata keçirilməsinə ümid yarandı. BMT-nin regonal sülhməramlı qüvvələrlə ilk əməkdaşlığı 1993-cü ildə Liberiyada Qərbi Afrika dövlətləri Birliyi timsalında həyata keçirildi. ATƏT-in 1993-cü ildən Dağlıq Qarabağda əməliyyatları regionda ədavətin artması ilə müşahidə edildi və bu sübut etdi ki, sülh əməliyyatlarında ATƏT və digər regional təşkilatlar təkbaşına fəaliyyət göstərə bilməz. Baş Məclisin 62-ci sessiyasında çıxış edən Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov DQ münaqişəsinin ən təhlükəli münaqişə olaraq qaldığını, ATƏT çərçivəsində 1992-ci ildən bəri olan danışıqların səmərə vermədiyini, DQ münaqişəsi barədə TŞ-nın qətnamələrinə əməl edilmədiyini bildirdi (2).

Baş Məclisin BMT-nin regional təşkilatlarla əməkdaşlığına həsr edilmiş 2006-cı il 20 sentyabr tarixli iclasında Ukraynanın xarici işlər naziri Vladimir Xandoni çıxış edərək, Gürcüstan, Moldova və Azərbaycanda olan «dondurulmuş münaqişələrin» həll edilməsi üçün BMT-nin regional təşkilatlarla əlaqələrini möhkəmləndirməyə çağırdı, BMT-nin GUAM, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT ilə əməkdaşlığının möhkəmlənməsinin əhəmiyyətli olduğunu qeyd etdi (19).

Qeyd etmək lazımdır ki, GUAM da BMT-də müşahidəçi statusunda iştirak edir və bu təşkilatın üzvü olan dövlətləri onların ərazisində olan oxşar problemlər birləşdirir. Məhz GUAM-ın BMT ilə bu regionda sülh və təhlükəsizliyi müdafiədə əməkdaşlığı daha məqsədəuyğundur.

Bundan sonra, Baş Məclisin 1994-cü il 24 mart tarixli qətnaməsinə müvafiq olaraq Amerika Dövlətləri Təşkilatı, Afrika Birliyi, ATƏT, MDB kontinental dövlətlərarası birlik hesab edildi. 1994-cü ildə BMT Gürcüstanda keçirdiyi əməliyyatlarda MDB sülhməramlıları ilə əməkdaşlıq etdi. Lakin MDB təşkilatı fəaliyyətini BMT Nizamnaməsinə müvafiq həyata keçirmədi. Nəticədə regionun eləcə də MDB təşkilatının aparıcı dövləti olan Rusiya Gürcüstana müdaxilə etməklə beynəlxalq hüquq normalarını pozdu(4,s.324). Həmin il mayın 3-də Təhlükəsizlik Şurasının sədri sülhməramlı əməliyyatlarda regional, subregional təşkilatların, yaxud sazişlərin iştirakının zəruriliyi barədə çıxış etdi(7). Dekabr ayında BMT və regional sazişlər, yaxud ixtisaslaşmış qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi barədə Baş Məclis bəyannamə qəbul etdi.

ATƏM-in sülh əməliyyatlarında iştirakı ilk dəfə 1992-ci ilin yanvarında Praqa görüşündə qərara alındı və bu məsələ həmin il 9-10 iyul tarixdə Helsinki görüşündə həyata keçirildi. İştirakçı ölkələr BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq ATƏM-in regional münaqişələrin nizama salınmasında rolunu elan etdilər.

Avropa İttifaqı da 1992-93-cü illərdən başlayaraq, 1995-ci ildə Lissabon bəyannaməsi qəbul ediləndən sonra da sülh əməliyyatlarında, Yuqoslaviyada, Kosovada, 1992-ci ildə yaradılan Avropa İttifaqı isə Bosniya, Herseqovina, Makedoniya, Konqo Demokratik Respublikasında, Əfqanıstanda sülhməramlı fəaliyyətdə BMT ilə əməkdaşlıq etdi.

NATO-nun BMT TŞ-nın mandatı olmadan Yuqoslaviyada hərbi əməliyyatlar aparması dünya birliyində ixtilafa səbəb oldu. Belə ki, bu hərbi –siyasi təşkilat 1949-cu il Vaşinqton müqaviləsinə müvafiq olaraq hərbi əməliyyatları ancaq ona üzv olan ölkələrin ərazisində keçirə bilər. 2001-ci ilin may ayında BMT yanında NATO-nun nümayəndəsinin danışıqlar aparmasından sonra əməkdaşlıq gücləndi. BMT Katibliyinin Tərksilah məsələləri üzrə Departamenti və NATO yanında Kütləvi Qırğın Silahları üzrə Mərkəz arasında əlaqələr yarandı. Katiblikdə münaqişələrin qarşısının alınmasından sülh quruculuğuna qədərki dövrdə NATO-nun potensialından istifadə etmək bildirildi (6, s.133).

BMT-nin Afrika Birliyi ilə əməkdaşlığı daha səmərəli nəticələr verir(3,s.69). Afrika Birliyinin təşəbbüsü ilə regional briqadalar yaradılmışdır. Darfur, Sudan, Qərbi Saxar, Burundi, Kot d,İvuar, Efiopiya və Eritreyada əməliyyatlar AB ilə əməkdaşlıqda həyata keçirilmişdir.

1995-ci ilə qədər BMT-nin 49 əməliyyatından 15-i regional, subregional təşkilatlarla, yaxud sazişlərlə əməkdaşlıq sayəsində həyata keçirilmişdir. Həmin il Baş katib Butros-Butros Qali «Sülh üçün gündəlik» adlı məruzəsində bildirdi ki, regional təşkilatların – münaqişələri nizama salmada iştirakı TŞ-nın üzərinə düşən ağırlığı azaltmaqla yanaşı, beynəlxalq məsələlələrin həllində demokratiyaya, konsensusa imkan verir. Belə ki, TŞ regional təşkilat və sazişlərə regionları böhranlı vəziyyətdən çıxarmaq üçün səlahiyyət verir (16).

Baş Katibin 1998-ci il aprelin 13-də etdiyi məruzədə, əsasən Afrikada sülh barədə danışılsa da, bu məruzə digər regionlar üçün də aktual əhəmiyyət kəsb etdi Məruzənin müzakirəsindən sonra mayın 28-də TŞ 1170 saylı qətnamə qəbul etdi. Qətnaməyə əsasən bütün tövsiyələrə baxmaq üçün işçi qrup təsis edilməsi barədə qərar qəbul edildi (10).

TŞ sədrinin 1998-ci il 16 sentyabr tarixli bəyanatı sülh quruculuğunda BMT-nin rolunu təsdiq edərək, regional, subregional təşkilatlar, yaxud sazişlər əsasında aparılan sülh əməliyyatları barədə daimi olaraq TŞ-nın məlumatlandırmanın vacibliyini bildirdi (8).

TŞ-nın həmin il 18 sentyabr tarixli 1197 saylı qətnaməsi yenidən regional və subregional təşkilatların təşəbbüslərini dəstəklədi (11). TŞ 30 noyabr tarixli bəyanatında regional və subregional təşkilatlarla əməkdaşlığın Nizamnamənin 52, 53 və 54-cü maddələrinə müvafiq olaraq həyata keçirilməsinin münaqişələrin nizamasalınmasına effektli təsir edə biləcəyini vurğuladı.

Baş Məclisin 55-ci sessiyasında qəbul edilən Minilliyin bəyannaməsində sülh və təhlükəsizliyi müdafiə üçün BMT-nin regional təşkilatlarla əməkdaşlığının möhkəmləndirilməsi qeyd edildi (18). TŞ həmin il qəbul etdiyi 13 noyabr tarixli 1327 saylı qətnaməsində tərəfləri regional, subregional təşkilatlarla birgə BMT ilə əməkdaşlığa çağırdı(12).

2003-cü il aprelin 11-də Meksikanın sədrliyi ilə «Təhlükəsizlik Şurası və regional təşkilatlar: yeni beynəlxalq sülh və təhlükəsizlik hədələri qarşısında», 2004-cü il iyunun 20-də Rumıniyanın sədrliyi ilə «Sabitləşmə proseslərində BMT və regional təşkilatlar arasında əməkdaşlıq» adlı iclaslar keçirildi.

XXI əsrdə effektli BMT-nin yaradılması üçün Təhlükələrin qarşısını almaq üzrə Yüksək səviyyəli qrupun məruzəsində TŞ-nın regional və subregional təşkilatların potensial imkanlarından istifadə etmədiyi göstərilir (5).

TŞ 2004-cü il 22 aprel tarixli 1539 saylı qətnaməsində də silahlı münaqişələr zamanı uşaqların vəziyyəti ilə maraqlanarkən BMT-nin Avropa İttifaqı və digər regional təşkilatlarla əməkdaşlığının vacibliyini göstərdi (13).

2005-ci il 25-26 iyul tarixdə BMT, regional təşkilatlar və digər hökumətlərarası təşkilatların iştirakı ilə müşavirə keçirildi. Müşavirədə sülh və təhlükəsizliyi müdafiədə regional və subregional təşkilatlar, xüsusən də Afrika regional və subregional təşkilatları ilə əməkdaşlığın zəruriliyi qeyd edilərək, yaradılacaq sülh üzrə komissiyaya belə təşkilatlarla sıx əlaqələr saxlamaq tövsiyə edildi. Həmin ilin sentyabrında keçirilən Ümumdünya sammitində iştirakçı dövlətlər yenidən regional və subregional təşkilatların sülh və təhlükəsizliyi müdafiədə rolunun vacibliyini təsdiq edərək, onların, xüsusən də Afrika Birliyinin BMT ilə güclü əməkdaşlıq etdiyini qeyd etdilər. TŞ-nın qəbul etdiyi 14 sentyabr tarixli 1625 saylı qətnamədə regional vasitəçi təşəbbüslərinə kömək, müvafiq regional və subregional təşkilatlarla məsləhətləşmək, onların potensial imkanlarından istifadə etmək göstərilmişdi (14). TŞ-nın 17 oktyabr tarixli 1631 saylı qətnaməsində yuxarıda adı çəkilən qətnamənin məzmunu təkrarlanmaqla yanaşı, regional və subregional təşkilatlar silah satışının qarşısını almaqda, beynəlxalq terrorizmlə mübarizədə BMT ilə əməkdaşlığı gücləndirməyə çağırıldı. Qətnamənin 9-cu bəndində göstərilirdi ki, Nizamnamənin 54-cü maddəsinə müvafiq olaraq sülh və təhlükəsizliyi müdafiə edərkən regional və subregional təşkilatlar TŞ-na tam məlumat verməlidir. TŞ bu təşkilatların rəhbərləri ilə müntəzəm müşavirə keçirməli, onların münaqişələrin nizama salınmasında rolu göstərilməlidir. TŞ eyni zamanda, Baş katibdən BMT və regional, subregional təşkilatlar arasında əməkdaşlıq çərçivəsində imkanlar və problemlər barədə məruzə etməyi xahiş etdi (15).

Baş Məclisin 61-ci sessiyasında BMT-nin Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası ilə əməkdaşlığının möhkəmləndirilməsi barədə qətnamə qəbul edildi (9). Belə qətnamələrin qəbul edilməsinin Minilliyin bəyannaməsinin həyata keçirilməsində mühüm rol oynayacağını qeyd edən Rusiyanın BMT yanındakı daimi nümayəndəsi Vitaliy Çurkin Baş Məclisin 63-cü sessiyasında BMT-nin Avrasiya

regionunda beynəlxalq terrorizmlə, qeyri-qanuni narkotik malların dövriyyəsi və s. ilə mübarizə məqsədilə yaradılmış Şanxay təşkilatı ilə əməkdaşlıq etməyinin əhəmiyyətli olduğunu vurğuladı (17).

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, XXI əsrdə münaqişələrin qarşısını almaq, nizama salmaq üçün BMT-nin effektivliyinin artırılması meyarlarından biri bu universal təşkilatın sülhməramlı fəaliyyətdə regional və subregional təşkilatlarla əməkdaşlıq etməsidir. Lakin bu əməkdaşlıq BMT Nizamnaməsinin VIII fəslinə müvafiq həyata keçirilməlidir. Əks halda regional təşkilatın fəaliyyəti səmərəli olmaz və hətta regionda münaqişənin eskalasiyasına gətirib çıxarar. Buna misal olaraq, yuxarıda qeyd etdiyimiz kimi, MDB-nin Gürcüstanda, ATƏT-in Azərbaycanda səmərəsiz fəaliyyətini göstərmək olar.

Baş Məclisin, Təhlükəsiz Şurasının BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı barədə qətnamələr qəbul etməsi, BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığını möhkəmləndirmək təşəbbüsü ilə çağırılan müşavirə və iclaslarda qərarlar verməsi, ayrı-ayrı dövlətlərin bu barədə fikir yürütməsi əsassız deyil. Belə ki, BMT-nin regional münaqişələrin nizama salınmasında regional və subregional təşkilatlarla əməkdaşlığının əhəmiyyəti ondadır ki, bu təşkilatlar regionlarını daha yaxşı tanıyır, sakinlərinin dilini, adət-ənənəsini və s. daha yaxşı bilirlər. Eyni zamanda, bu təşkilatların potensialından istifadə etmək, maliyyə, texnika və s. baxımdan BMT-nin üzərinə düşən ağırlığı yüngülləşdirir. Lakin BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı Nizamnamənin 52-54-cü maddələrinə uyğun həyata keçirilmədikdə neqativ hallarla nəticələnir. Belə ki, regional təşkilat nizamasalmada qərəzli mövqedən çıxış edə bilər. İri region dövləti öz «sülhməramlı» cəhdlərindən istifadə edərək xüsusi maraqlarını regionda həyata keçirməyə çalışa bilər. Eyni zamanda, regional təşkilat nizamasalmada tək hərəkət edə bilməz. Bir qayda olaraq, onun dünya birliyini cəlb etmək üçün imkanları azdır və belə bir şəraitdə BMT-nin regional təşkilatlarla sülhməramlı qüvvələrini birləşdirmək zərurəti ortaya çıxır. Bu əməkdaşlıq sayəsində hərbi-siyasi, humanitar, sosial-iqtisadi, insan hüquqları və əsas azadlıqları məsələlərinə baxılır.

## *ƏDƏBİYYAT*

1.Генеральная Ассамблея ООН приняла резолюцию о положении на оккупированных территориях Азербайджана, Центр Новостей ООН, http: www.un.org /russian/

2.Глава МИД Азербайджана обеспокоен отсутствием результатов на переговорах под эгидой ОБСЕ по урегулированию конфликта с Арменией, Центр Новости ООН, www.un.org/russian/

3.Dadaşova R. Afrika Birliyi ölkələrinin sülh və təhlükəsizliyini müdafiədə BMT-nin rolu», Elmi əsərlər», Bakı, 2007, № 1, s.63-70

4.Dadaşova R. Abxaziya problemi və BMT, AMEA-Xəbərləri. Bakı, 2008, № 9, s.314-326.

5.Доклад Группы высокого уровня по угрозам вызовам и переменам (A/59/565+ corr.1) Часть четвертая Более эффективная ООН для XXI века.www.un.org/russian/

6.Заемский В.Ф. ООН и миротворчество. Курс лекций, М., Международная отношения, 2008, 312 с.

7.Заявление Председателя СБ ООН S/PRST/1994/22,www.un.org/russian/

8.Заявление Председателя СБ ООН S/PRST/1998/28,www.un.org/russian/

9.ООН стремится к управлению сотрудничества с региональными органами, Центр Новости ООН, www.un.org/russian/

10.Перечень резолюций Совета Безопасности принятых в 1998 году, S/Res/1170/1998, www. un.org/russian/

11.Перечень резолюций Совета Безопасности принятых в 1998 году, S/Res/1197/1998, www. un.org/russian/

12.Перечень резолюций Совета Безопасности принятых в 2000 году, S/Res/1327/ 2000, www.un.org/russian/
13.Перечень резолюций Совета Безопасности принятых в 2004 году, S/Res/1539/2004, www.un.org/russian/
14.Перечень резолюций Совета Безопасности принятых в 2005 году, S/Res/1625/2005, www.un.org/russian/
15.Перечень резолюций Совета Безопасности принятых в 2005 году, S/Res/1631/2005, www.un.org/russian/
16.Повестка дня для мира A/47/277-s/24111 § 63-65 Доклад Генерального секретаря ,www.un.org/russian/
17.Посоль России высказался за наращивание сотрудничества ООН с региональными и другими организациями, Центр Новости ООН, www.un.org/russian/
18.Резолюция, принятая Генеральной Ассамблеей от 8 сентября 2000 года A/Res/55/2 Декларация тысячелетия Организации Объединенных Наций,www.un.org/russian/
19.Украина призывает укреплять сотрудничество ООН с региональными организациями с целью урегулирования конфликтов в Азербайджане, Грузии и Молдова, Центр Новости ООН, www.un.org/russian/

**Р.Б.ДАДАШЕВА**
***Научный сотрудник Института Философии, Социологии и Права НАН Азербайджана***

**СОТРУДНИЧЕСТВО ООН И РЕГИОНАЛЬНОЙ, СУБРЕГИОНАЛЬНОЙ ОРГАНИЗАЦИЙ НА РЕГУЛИРОВАНИЙ РЕГИОНАЛЬНЫХ КОНФЛИКТОВ**

В статье «Сотрудничество ООН и региональной, субрегиональной организаций на регулирований региональных конфликтов» был исследовано проблемы сотрудничества ООН с региональными и субрегиональными организациями по поддержании мира и безопасности. Автор показывает, что с 90-х годах XX века ООН осуществляет миротворческой деятельности в сотрудничестве с региональными и субрегиональными организациями. Это сотрудничество должно осуществлять согласно со статьями 52-54 Устава ООН. Если сотрудничество не осуществляет согласно Уставу ООН, это имеют своим негативным результатом. Потому что во первых, для привлекать мирового сообщества, потенциалов региональных и субрегиональных организаций ограничены. Во вторых, «великое» государство региона будет реализовать своих национальных интересов используясь свой «миротворческий» усилий.

В заключения автор выдает некоторые рекомендации касающиеся данной проблемы.

**R.B.DADASHOVA**
***Scientific worker of the Institute of Philosophy, Sociology and Law of NAS Azerbaijan***

**THE COOPERATION BETWEEN UNO AND REGIONAL,SUBREGIONAL ORGANIZATIONS IN REGULATION OF THE REGIONAL CONFLICTS**

In the article "The cooperation between UNO and regional,subregional organizations in regulation of the regional conflicts" has been researched the problem of the cooperation between UNO and regional, subregional organizations in the peacemaking activity.In the article showed from 90 years XX century UNO realizes the peacemaking activity in the cooperation with regional and subregional organizations. This cooperation must realize in accord the of UNO Charter. If the cooperation doesn't realize in accord of the UNO Charter, will negative rezultat. Because the potential of the regional and subregional organizations is limited for attract the world association. And the "great" state of the region wille realizes his national interests. At the conclusion of the article the general issue related to the researched problem have been set up.

***Rəyçilər: t.e.d.H.Əlibəyli, t.e.d.M.C.Qasımlı.***
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin 26 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***